*Könül Akif qızı ABBASOVA*
*AMEA Coğrafiya İnstitutu – dissertant*
*Bakı Dövlət Universitetinin Qazax filialı – müəllim*
*abbas.k@bk.ru*

# COĞRAFİYA ELMİNİN ƏSAS SAHƏLƏRİ VƏ AZƏRBAYCANDA İNKİŞAF TARİXİ

*Xülasə*

Hər bir elm sahəsində olduğu kimi coğrafiya da inkişaf etməkdə, yeni tədqiqat istiqamətləri tətbiq edilməkdədir. Bu elmin inkişaf etməsində müasir metodlardan istifadə daha dəqiq nəticələrin əldə edilməsinə şərait yaradır. Qeyd etmək lazımdır ki, coğrafiyanın əsas məqsədi proqnozlar vermək, gələcək hədəfləri müəyyənləşdirməkdir. Buna görə də bu elmin inkişaf tarixi mütəmadi nəzərdən keçirilməli, müqayisəli təhlillər aparılmalıdır.

***Açar sözlər: coğrafiya, elm, tarix, inkişaf, tədqiqat.***

***

Yer kürəsinin öyrənilməsində coğrafiya ilə bir çox elmlər rol oynayır. Buraya geologiya, geokimya, geofizika, biologiya və s. daxildir. Bundan əlavə coğrafiyanın yuxarıda qeyd edilən sahələri ayrı-ayrılıqda bir çox elmlərlə sıx əlaqəlidir. Tədqiqatların aparılmasında müxtəlif elmlərin nəticələrindən istifadə günümüzdə daha çox istifadə edilir. Coğrafiyaya ən yaxın olan elm sahəsi geologiyadır. Fiziki coğrafiyanın fizika, astronomiya, kimya və riyaziyyatla müxtəlif mövzularda bağlılığı var. Həmçinin coğrafiyanın biologiya və ekologiya ilə ortaq sahələri var. Məsələn, heyvanların və bitkilərin yayılmasını öyrənən elm sahəsi biocoğrafiya adlanır. Buraya bitki coğrafiyası və zoocoğrafiya daxildir. Ekologiya elmi hər bir sahədə coğrafiya ilə sıx bağlıdır.

İqtisadi və sosial coğrafiya isə iqtisadiyyat və sosiologiya elmləri ilə əlaqəlidir. Bundan əlavə ictimai elmlərdən tarix, toponimika, politologiya və etnologiya iqtisadi və sosial coğrafiya ilə bağlıdır.

Zaman keçdikcə müxtəlif elm sahələri inkişaf etmiş, coğrafiya elm sferasından birçox müstəqil elmlər meydana gəlmişdir. Bunlardan əsasən aşağıdakıları qeyd etmək olar:

- giokrilogiya - daimi donuşluğu öyrənən elm sahəsidir;
- qlyasiologiya - buzlaqlar haqqında elm sahəsidir;
- limnologiya - gölləri öyrənən elm sahəsidir;
- ölkəşünaslıq;
- democoğrafiya;
- tibbi coğrafiya;
- hərbi coğrafiya və s.

Hal-hazırda coğrafiyanın əsas vəzifəsi proqnoz verməkdir.

Coğrafi proqnozlar keçmiş tədqiqatların nəticələrinə əsaslanaraq yaxın zamanda baş verəcək coğrafi hadisələrin düzgün olaraq müəyyənləşdirilməsidir.

Coğrafiya təbii ehtiyatlardan düzgün istifadə edilməsini və onların mühafizə edilməsi yollarını müəyyənləşdirir.

Müasir coğrafiya elmi 3 əsas sahədən ibarətdir:

1. Fiziki coğrafiya - təbiət elmləri olmaqla özündə bir çox elmləri birləşdirir;
2. İqtisadi və sosial coğrafiya - əhalini, sənayeni, kənd təsərrüfatını, nəqliyyatı, müxtəlif xidmət sahələrini əhatə etməklə ictimai elm sahəsidir;
3. Kartoqrafiya - çox vaxt xəritəşünaslıq adlandırılan texniki elmləri özündə birləşdirən elm sahəsidir.

Azərbaycanın qədim təbiəti, sərvətləri, xalqları, coğrafiyası haqqında Herodotun, Strabonun, Plininin, Ptolomeyin, Plutarxın əsərlərində geniş məlumatlar vardır.

XIV əsrin axırları – XV əsrin birinci yarısında yaşayan Azərbaycan coğrafiyaçısı və tarixçisi Əbdürrəşid Bakuvinin coğrafiyaya dair fikirləri olduqca böyük maraq doğurur. Onun 1404-cü ildə yazdığı “Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri” əsərində Bakının neft quyuları haqqında geniş məlumat verilir. Həmçinin, Bakuvi Yer kürəsini yeddi iqlimə bölmüş, hər iqlimdə

yerləşən ölkələr, şəhərlər, adalar, dənizlər və s. haqqında məlumat vermişdir. Bakuvi Azərbaycanı isə 4-cü və 5-ci iqlimə daxil etmişdir [1, 3].

**Hacı Zeynalabdin Şirvani (1780-1837)** ömrünün 40 ilini müxtəlif ərazilərə səyahətlər etmişdir. Yazdığı "Cənnət bağı səyahətləri" , "Səyahət bağı" əsərlərində Azərbaycan, Yaxın Şərq, Mərkəzi Asiya ölkələrinin coğrafiyası, abidələri, etnoqrafiyası, görkəmli şəxsləri haqqında qiymətli məlumatlar vermişdir. O, coğrafi adların mənşəyi haqqında çoxlu mülahizələr irəli sürmüşdür. **Abbasqulu ağa Bakıxanov (1794-1846)** coğrafiya sahəsində də mühüm xidmətləri olmuşdur. O, səyahət etdiyi ölkələrin geniş coğrafi təsvirini vermiş, həmçinin "Qəribə kəşflər" əsərini Amerika qitəsinin kəşf edilməsinə, Amerikanın coğrafi təsvirinə həsr etmişdir [2, 4].

**İsmayıl Qutqaşınlının** (1806-1861) Məkkə səfərini əks etdirən "Səfərnamə" adlı əsəri coğrafiya elmi üçün olduqca qiymətlidir. Görkəmli təbiətşünas alım **Həsən bəy Zərdabinin (1842-1907)** Azərbaycanda coğrafi fikrin inkişaf etdirilməsində mühüm rolu olmuşdur [2, səh. 43].

**Qafur Rəşad Mirzəzadə (1884-1943)** Azərbaycanın görkəmli coğrafiyaçılarından biridir. O, Azərbaycanda coğrafiya tədrisi metodikasının əsasını qoymuşdur. Eləcə də, Azərbaycanda ilk dəfə Azərbaycan dilində coğrafiya dərsliyini yazmışdır. Onun "Ümumi coğrafiya", "Ümumi fiziki coğrafiya", "Qafqaz coğrafiyası", "Azərbaycan coğrafiyası", "Coğrafiya terminləri lüğəti" adlı əsərləri respublikamızda coğrafiya elminin inkişafı üçün qiymətli töhfədir.

**Məhəmmədhəsən Baharlı (1896-1943)** Azərbaycanda coğrafiya elminin inkişafında əvəzolunmaz rol oynamışdır. M. Baharlının Azərbaycan coğrafiyasına gətirdiyi "Azərbaycan" kitabı olduqca mühüm əhəmiyyət daşıyır. 1921-ci ildə həmin kitab Azərbaycan və rus dillərində çap edilmişdir. Məlum olduğu kimi daha əvvəlki illərdə Respublikamızda coğrafiya məktəbi olmadığı üçün kadrlar Rusiyanın müxtəlif şəhərlərində yetişdirilirdi. Azərbaycan Respublikası Elmlər Akademiyasının Coğrafiya İnstitutu yaradıldıqdan sonra respublikamızda coğrafiya elmi sürətlə inkişaf etməyə başladı.

Ölkəmizdə coğrafiya elminin formalaşmasının əsas mərhələsi XX əsrin 50-60-cı illərindən sonralara təsadüf edir. Bu dövrdə coğrafiya elmində yeni sıçrayışlar baş vermiş, bir çox tədqiqatlar daha da təkmilləşdirilmişdir. Növbəti illərdə coğrafiya bir çox elm sahələrinə bölünərək ixtisaslaşmış və bu ixtisaslaşmaya uyğun tədqiqatçılar yetişdirilmişdir. Bu elmin ayrı ayrı sahələri aşağıdakı tədqiqatçılar tərəfindən öyrənilmişdir.

Relyef – Budaq Budaqov, Müseyib Müseyibov;
İqlim – Əliabbas Mədətzadə, Ənvər Şıxlinski;
Torpaq örtüyü – Həsən Əliyev, Məmməd Salayev;
Xəzər dənizinin coğrafiyası – Qasım Gül;
Çaylar – Rüstəmov Saleh, İmanov Fərda;
İqtisadi coğrafiya – Hadı Əliyev, Asəf Nadirov, Əbdürrəhim Hacızadə.

## ƏDƏBİYYAT


1. Mehdiyev A.Ş., İsmayılov A.İ. - Coğrafi informasiya sistemləri - Bakı: "Müəllim" nəşriyyatı. 2011. 233s.
2. Həsənov T., Hacızadə Ə. – "Coğrafiya tarixi" – Bakı: Bakı Universiteti Nəşriyyatı. 2001. 94 s.
3. İsmayılov A.İ. - Azərbaycan torpaqlarının informasiya sistemi. Bakı: ELM - 2004 308 s.
4. İsmayılov A.İ – Torpaq monitorinqinin informasiya bazası – Bakı: ELM – 1997. 121 s.
5. Seyfullayeva N.S. - Coğrafiyanın tədrisi metodikası. Dərslik. Bakı: 2011. 161s.
6. Seyfullayeva N.S.- Orta məktəblərdə coğrafiya təliminin metodikası (B.Bibikin redaktəsi ilə) "Coğrafiyanın tədrisi metodikası. Dərslik. Bakı. 2011 223s.
7. Берлянт А.М. Геоинформационное картографирование – М:1997.-64с.
8. Варламов А.А.,Валиев Д.С., и др. Государственная регистрасия, учет и оценка земель. Москва: ГУЗ2004-64с.
9. Кошкарев А.В., Тикунов В.С. Геоинформатика. Справочное пособие. М: 1997. 213 с.

***Конуль Акиф кызы Аббасова***
***Институт Географии НАНА-диссертант***

**Основные направления географии и истории развития АЗЕРБАЙДЖАНА**

***Резюме***

Как и во всех областях науки, география развивается, применяются новые направления исследований. Использование современных методов в развитии этой науки создает условия для получения более точных результатов. Следует отметить, что основная цель географии – делать прогнозы и определять цели на будущее. Поэтому историю развития этой науки необходимо регулярно рассматривать и проводить сравнительный анализ.

***Ключевые слова: география, наука, история, развитие, исследования.***

***Konul Akif Abbasova***
***Institute of geography of ANAS, dissertant***

**Main areas of geography and history of development in Azerbaijan**

***Summary***

As in every field of science, geography is developing and new research directions are being applied. The use of modern methods in the development of this science creates conditions for obtaining more accurate results. It should be noted that the main purpose of geography is to make predictions and determine future goals. Therefore, the history of the development of this science should be regularly reviewed and comparative analyzes should be conducted.

***Key words: Geography, science, history, development, research.***